# İXRACINIZI HÖKUMƏT NECƏ TƏŞVİQ EDİR?

MADE IN AZERBAIJAN



EXPORT

# İXRACINIZI HÖKUMƏT NECƏ TƏŞVİQ EDİR?

Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamı ilə **hər bir ixracatçı aşağıdakıları əldə edə bilər**:

1. Xarici ölkələrə təşkil edilən ixrac missiyalarında iştirak.
2. Azərbaycan ərazisinə alıcı missiyalarının təşkilinə dair müraciət.
3. Bazar araşdırmasına yardım.
4. Beynəlxalq sertifikatın alınmasına dəstək.
5. Tədqiqat-inkişaf proqramının hazırlanmasına dəstək.
6. Beynəlxalq sərgi və yarmarkalarda fərdi qaydada iştirakla bağlı dəstək.
7. İxaraca görə dəstək məbləği.

## *1. Xarici ölkələrə təşkil edilən ixrac missiyalarında iştirak*

1. İxrac missiyaları haqqında məlumat İqtisadiyyat Nazirliyinin internet səhifəsindən əldə edilə bilər. İxrac missiyaları ilə əlaqədar məlumatlar rübdə bir dəfə yenilənir.
2. Hər ixrac missiyasında ixracatçı bir nümayəndə ilə təmsil edilə bilər.
3. İxrac missiyasında iştirak edən ixracatçıların xarici ölkəyə səfəri ilə bağlı təşkilati işləri və onlarla bağlı xərcləri İqtisadiyyat Nazirliyi təmin edir.

## *2. Azərbaycan ərazisinə alıcı missiyalarının təşkilinə dair müraciət*

1. Alıcı missiyaların təşkilinə dair ixracatçılar da təkliflər verə bilər. Alıcı missiyaları haqqında məlumat İqtisadiyyat Nazirliyinin internet səhifəsindən əldə edilə bilər.
2. Hər alıcı missiyasında alıcı yalnız bir nümayəndə ilə təmsil edilə bilər.
3. Alıcı missiyasında iştirak edən xarici şəxslərin Azərbaycana səfəri ilə bağlı təşkilati işləri və onlarla bağlı xərcləri İqtisadiyyat Nazirliyi təmin edir.
4. Alıcı missiyasında iştirak edəcək xarici şəxslər Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi meyarlara uyğun olaraq müəyyən edilir.

## *3. Bazar araşdırmasına dəstək*

1. Bazar araşdırması ixracatçıların sifarişi əsasında həyata keçirilir.
2. Bazar araşdırmasının keçirilməsi ilə bağlı ixracatçılardan daxil olmuş sifarişlərin qiymətləndirilməsi meyarlarını Nazirlik müəyyən edir.
3. Bazar araşdırması İqtisadiyyat Nazirliyin seçdiyi ixtisaslaşmış yerli, yaxud xarici hüquqi və ya fiziki şəxslərlə bağlanılan satınalma müqaviləsi əsasında həyata keçirilir.
4. Hər bir bazar araşdırmasına görə ödənilən dəstək məbləği qanunvericilikdə müəyyən olunmuş məbləğdən artıq ola bilməz.
5. Bazar araşdırmasının aparılması barədə İqtisadiyyat Nazirliyinin rəsmi internet saytında ümumi məlumat yerləşdirilir, həmin araşdırmanın nəticələri sifariş vermiş ixracatçıya və digər ixracatçılara əvəzsiz olaraq təqdim edilir.

## 4. Beynəlxalq sertifikatın alınmasına dəstək

1. Bu dəstək ixracatçılarının sifarişi əsasında İqtisadiyyat Nazirliyinin seçdiyi ixtisaslaşmış hüquqi və ya fiziki şəxslər həyata keçirirlər.
2. Bir ixracatçı eyni təqvim ili ərzində yalnız bir beynəlxalq sertifikatın alınması üçün faydalana bilər.
3. Alınmasına dəstək verilən beynəlxalq sertifikatların siyahısını İqtisadiyyat Nazirliyi müəyyən edir və özünün rəsmi internet saytında yerləşdirir.
4. İxracatçı sertifikatla əhatə olunan məhsulu (məhsulları) sertifikatı əldə etdiyi tarixdən etibarən ixrac etməli və bu barədə məlumatları və sənədləri (gömrük bəyannamələrinin surətlərini) müvafiq ixrac əməliyyatlarının aparıldığı tarixdən etibarən 30 (otuz) gündən gec olmayaraq İqtisadiyyat Nazirliyinə təqdim etməlidir.

## 5. Tədqiqat-inkişaf proqramının hazırlanmasına dəstək

1. Tədqiqat-inkişaf proqramları ixracatçıların sifarişi əsasında və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Nazirliyin seçdiyi ixtisaslaşmış yerli, yaxud xarici hüquqi və ya fiziki şəxslərlə bağlanılan satınalma müqaviləsi əsasında həyata keçirilir.
2. Tədqiqat-inkişaf proqramlarının təşkili ilə bağlı ixracatçılardan daxil olmuş sifarişlərin qiymətləndirilməsi meyarlarını İqtisadiyyat Nazirliyi müəyyən edir.
3. Hər bir tədqiqat-inkişaf proqramına görə ödənilən dəstək məbləği çəkilən xərclərin 50 (əlli) faizini təşkil edir.
4. Təqvim ili ərzində keçirilən tədqiqat-inkişaf proqramlarının sayı 5-dən (beşdən) artıq ola bilməz.

## 6. Beynəlxalq sərgi və yarmarkalarda fərdi qaydada iştirakla bağlı dəstək

1. Beynəlxalq sərgi və yarmarkalarda fərdi qaydada iştirakla bağlı dəstək məbləği ödənilir.

## 7. İxaraca görə dəstək məbləği

1. İxrac təşviqinin baza məbləği ixrac əməliyyatlarına görə faktiki ixrac olunmuş malın ixrac gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 3 (üç) faizini təşkil edir.
2. İxrac olunan qeyri-neft məhsullarının Azərbaycan Respublikasının ərazisində istehsal olunan və istehsal prosesində istifadə edilən yerli komponentlərin və Azərbaycan Respublikasının ərazisində yaradılan qeyri-neft məhsullarının dəyərinin xüsusi çəkisi mənşə sertifikatı əsasında müəyyən olunur və ixrac təşviqi Azərbaycan Respublikası mənşəli mallara şamil edilir;
3. İxrac təşviqinin məbləği ixrac təşviqinin baza məbləğinə ixrac olunan qeyri-neft məhsullarının növündən asılı olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən əmsallar tətbiq olunmaqla hesablanır və ödənilir.

İxracatın təşviqi ilə bağlı daha ətraflı məlumatları bu internet saytlarında əldə etmək olar:

http://azpromo.az/
http://export.az/az/
http://e-qanun.az/

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

"Sahibkarlığın dövlət tənzimlənməsi sahəsində həyata keçirilən tədbirlərə dəstək" layihəsi

